# Polşa Prezidenti: Azərbaycan COP29-u yüksək səviyyədə təşkil edib

Azərbaycan COP29-u yüksək səviyyədə təşkil edib.

AZƏRTAC-ın məlumatına görə, bu sözləri Polşa Prezidenti Andjey Duda Bakıda jurnalistlərə açıqlamasında deyib.

Dövlət başçısı bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü xatırladıb.

“İki ölkə arasında çox gözəl iqtisadi əlaqələr mövcuddur. O cümlədən enerji sahəsində əməkdaşlıq əlaqələrimizin ənənəvi hissəsini təşkil edir. İnanıram ki, bu əlaqələr ikitərəfli əməkdaşlığın digər sahələrində də dərinləşəcək”, - deyə Polşa Prezidenti əlavə edib.

**AZƏRTAC**
**2024, 12 noyabr**